# Mir Cəlal Paşayev çağdaş Azərbaycan ədəbiyyatının görkəmli simalarındandır

Gəncədə görkəmli alim, yazıçı və pedaqoq Mir Cəlal Paşayevin anadan olmasının 108-ci ildönümü təntənə ilə qeyd edilmişdir.

Ədibin adını daşıyan muzeydə keçirilən yubiley tədbirində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev və Milli Aviasiya Akademiyasının Hüquq kafedrasının müdiri, professor İbrahim Quliyev çıxış edərək XX əsr Azərbaycan elminin, ədəbiyyatının, eləcə də təhsilinin inkişafında misilsiz xidmətlər göstərmiş Mir Cəlal Paşayevin həyat və yaradıcılığından danışmışlar. Qeyd etmişlər ki, Mir Cəlal Paşayevin həyatının bir çox məqamları Gəncə ilə bağlı olmuşdur. O, şəhərdəki 1 nömrəli orta məktəbdə təhsil almış, sonralar həmin məktəbdə müəllim və direktor vəzifələrində çalışmışdır. Ədib ən gözəl əsərlərini də məhz Gəncədə yazmışdır. 1928-ci ildə ədəbiyyata gələn Mir Cəlal Paşayev çağdaş Azərbaycan tarixində ədəbiyyatşünas-nəzəriyyəçi alim kimi də müstəsna və özünəməxsus yer tutmuşdur. O, 1940-cı ildə “Füzulinin poetik xüsusiyyətləri” əsərinə görə filologiya elmləri namizədi, 1947-ci ildə “Azərbaycanda ədəbi məktəblər” əsərinə görə filologiya elmləri doktoru alimlik dərəcəsi almışdır.

XX əsrin 20-30-cu illərində ədəbi aləmdə əvvəlcə şeir, oçerk və hekayələri ilə tanınan Mir Cəlal Paşayev az sonra orijinal yaradıcılıq üslubu olan yazıçı kimi Azərbaycan ədəbiyyatı tarixində öz layiqli yerini tutmuşdur. “Bir gəncin manifesti” əsəri ilə klassik sənətkar titulu qazanmışdır. Ümumiyyətlə yazıçının qələmindən altı roman çıxmışdır. “Dirilən adam”, “Yolumuz hayanadır”, “Açıq kitab”, “Yaşıdlarım” və “Yeni şəhər” romanları da ədibə böyük şöhrət gətirmişdir.

Tədbirin rəsmi hissəsindən sonra Gəncə Dövlət Filarmoniyasının kamera orkestri maraqlı konsert proqramı ilə çıxış etmişdir.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***